AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# Peşə Təhsili Üzrə Dövlət Agentliyinin

# İsmayıllı Peşə Tədris Mərkəzi

# haqqında məlumat

Tarix: 04/10/2017

# Məktəb haqqında məlumat

Şəhər / Rayon: İsmayıllı şəhəri

Ünvan: Ə.Ələkbərzadə küç 34

Email: peshe_tedris_merkezi@list.ru

WEB sayt: www.peshe-tedris-merkezi.com

https://www.facebook.com/Ismayilli.PTM/?fref=ts

Yaranma ili: 2011

# Məktəb haqqında məlumat

İxtisaslaşma:  12 ixtisas

Müəllimlərin sayı: 13 nəfər

Ustaların sayı: 14 nəfər

Inzibati heyyətin sayı: 8 nəfər

Texniki heyyətin sayı   24 nəfər

İşçilərin ümumi sayı:       59

Şagirdlərin sayı: 275 nəfər

2017-2018 tədris ilinə

qəbul olan şagirdlərin sayı : 220 nəfər

# Məktəb haqqında məlumat

| | | |
|---|---|---|
| Ümumi sahə: | | 5124 kv.m. |
| İnzibati binanın sahəsi: tədris binasının daxilindədir. | | |
| Tədris binanın sahəsi: | | 2032 kv.m. |
| Emalatxanın sahəsi: | | 572 kv.m. |
| Yataqxana: | 80 yerlik | 944 kv.m. |
| İdman zalı: | | 240 kv.m. |

# *PTM-in idarəedilməsi.*

- Pedoqoji şuranın və Metodiki kabinetin, fənn birləşmələrinin tərkibində biznes qurumlarının olması onlarla əlaqələrə güclü təsir edir.



# ***Menecment - müasir idarə etmə modelinin tətbiqi***

- Əməkdaşlar və təhsilalanlar üçün daxili intizam qaydalarının hazırlanmasi və təsdiqi- *Məkdəb daxili nizam intizam məsələlləri düzgün tənzimlənir, münasibətlərin normallaşdirilmasi təmin edilir,etik normalara dərs və əmək intizamına tam riayyət olunur*
- Məktəbin" Qaynar xətt" xidmətinin yaradılması və bu strukturun normal faliyyətinin təmin olunması - *İdarəetmədə şəffavlıq təmin edilir ,baş verən neqativ halların qarşısı darhal alınır, proseslər domokratik mühüt şəraitində gedir*
- Pedaqoji Şuranın yeni tərkibinin formalaşdırılması, bu siyahıya işəgötürənlərin və valideyinlərin numayəndələrinin daxil edilməsi- *Kollektiv qərarçıxarma mexanizminin tətbiqi üçün real şərait yaradılır*
- Hesabatlılıq sisteminin tətbiqi - *Daha şəffaf proseslər gedir,analitik təhlillərin müzakirəsi aparılır ,təkliflər nəzərə alınır,idarəetmə təkminləşdirilir*
- Maketinqlə bağlı məqsədyönlü fəaliyyətin aparılması,işəgötürən təşkilatlarla təmasların qurulması, məzunların əmək bazarından işlə təminat məsələsinə diqqətin artırılması - *Məzunlara işəgötürənlərin marağı artır, ilk peşə- ixtisası təhsilinin ictimai statusu yüksəlir,cəmyyətin təlabatı ixtisaslı mütəxəssisə doğru yönəlir*

## İsmayıllı Peşə Tədris Mərkzənin işgüzar əlaqələri

- Mütəmadi olaraq İsmayıllı Peşə Tədris Mərkəzində komissiyalar tərəfindən mərkəzin GZİT təhlili aparılır və məktəbin zəif tərəflərinin inkişaf etdirilməsi yönündə fəaliyyət proqramı hazırlanır.

  İşəgötürənlərin məktəbə maraqlarının artırılması istiqamətində fəal tədbirlər keçirilir.
- Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Mərkəzi ilə birgə isin təşkilinin nəticəsi olaraq Mərkəzimizdə əmək yarmarkaları təşkil edilir. Son əmək yarmarkası cari ilin iyununda təşkil edilmiş, yarmarkaya dəvət edilmiş 225 dən artıq dövlət və özəl şirkətləri tərəfindən təklif edilmiş iş yerlərinin sayı 400 dən çox olmuşdur. Xüsusi ilə turizm sektoru üzrə təklif edilmiş iş yerlərinin əksəriyyəti şagirdlərimiz tərəfindən maraqla qarşılanmışdır.

# Maddi texniki baza

- Məktəbimiz ən müasir maddi texniki baza ilə təmin edilmişdir. Belə ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə Azərbaycanın Seçilmiş Rayonunda qrant proqramının icrası ilə əlaqədar olaraq 2011-ci ildə İsmayıllı Peşə Tədris Mərkəzinə ən müasir aşpaz,barmen,ofisiant ixtisaslarının istehsalat təliminin təşkili ilə əlaqədar avadanlıqlara təmin edilmişdir. İxtisaslar üzrə uğurlu modullar və tədris vəsaitləri hazırlanmış və tədbiq edilməyə başlanılmışdır.
- Hal hazırda məktəbimizdə Aşpaz, Barmen-bufetçi,Mehmanxana İnzibatçısı,Dərzi,Xalçaçı,Traktorçu-maşinist, Avtomobil təmiri çilingəri ixtisasları üzrə qruplar fəaliyyət göstərir. Son dövürlərdə Mərkəzin maddi texniki bazasının inkişaf etdirilməsi yönündə əməli tədbirlərin davamı olaraq ən müasir kənd təsərrüfatı texnikalaraı alınaraq mərkəzin istifadəsinə təqdim edilmişdir.

# Təhsildəki yeniliklərin tətbiqi

- Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ilk peşə-ixtisas təhsili sahəsində peşə hazırlığının səmərəliliyini artırmaq və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanmasını təmin etmək yolunda böyük işlər görmüşdür. Qəbulun "Asan peşə" və elektron layihə şəkildə aparılması bu sahədə böyük maraq və əhəmiyyətli şəkildə nəzərəçarpan dəyişikliyi ortaya qoymuşdur. Cari tədris ilində müəllimlərimizin diaqnostik qiyymətləndirilməsi keçirilmiş, qiyymətləndirmədə bütün ümumtəhsil fənn müəllimlərinin iştirakı təmin olunmuş və müəllimlərimiz qiyymətləndirmə prosesində yüksək nəticələr əldə etmişlər. Hal hazırda İsmayıllı Peşə Tədris Mərkəzində təhsil alan gənclər rayonumuzla yanaşı ölkəmizin digər rayon və bölgələrini təmsil edirlər.

- Cari ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Dövlət Peşə Təhsili Agentliyi tərəfindən Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsilinin dövlət standartları hazırlanmışdır ki,  bu standartlara əsasən peşə təhsili müəssissəsi olaraq İlk peşə-ixtisas təhsilinə qoyulan məcburi tələblər əsasında kadr hazırlığı səviyyəsinin yüksəldilməsini təmin etmək, keyfiyyətə nəzarət sistemini təkmilləşdirmək, məzunların əmək bazarında rəqabət qabilliyyətliliyini təmin etmək qarşımıza əsas prioritetlər olaraq məqsəd şəkildə qoyulmuşdur. Biz bu standartları yerinə yetirməyə çalışmalıyıq.

# Maliyyə hesabatlılığı

- İsmayıllı Peşə Tədris Mərkəzi əsasən mərkəzi dövlət büdcəsindən maliyyələşən təhsil müəssisədir. Müəssisənin gəlir və xərcləri təsdiq edilmiş illik smeta ilə tənzimlənir. Müəssisə üçün nəzərdə tutulmuş xərclər maddəsi üzrə illik smeta 223345 AZN təsdiq edilmişdir. Xərclər əsasən işçilərin əmək haqqı, dövlət sifarişi üzrə təhsil alanların təqaüdləri, kommunal xərclər və məktəbin saxlanılması üçün digər xərclərdən, o cümlədən vergilərdən və sosial müdafiə üçün nəzərdə tutulmuş xərc maddələri üzrə bəndlərdən ibarətdir. Mərkəzin büdcədən kənar gəlirləri ümumi xərclərin və gəlirlərin yalnız 8 % qədərini təşkil edir. Qarşıya qoyduğumuz məqsəd büdcə asılılığını minumuma qədər endirməkdir. Belə ki, bu il üçün biz minumum olaraq büdcədənkənar gəlirlərin ümumi büdcənin 15 % -nə qədər artırmağı planlaşdırırıq. Mərkəzin strarteji inkişaf planına əsasən bu gəlirlər 2020 –ilədək 25 % ötməlidir.

# Maliyyə hesabatlılığı

- *Mərkəzin gəlirlərini artırmaq üçün nəzərdə tutulmuş fəaliyyət planı:*
- 1. Ödənişli təhsillə bağlı gəlirlərin artırılmasını təmin etmək
- 2. Mərkəzin təlim təsərrüfatını inkişaf etdirmək və təsərrüfat gəlirlərini artırmaq
- 3. Maddi texniki bazanın müasir standartlara uyğun olaraq qorunub saxlanılmasını və işəgötürənlərin məktəbə himayəsinin təşkilinə şərait yaratmaq.
- 4. Abad xidmətin fəaliyyətindən istifadə edərək sənətkarlıq nümunələrinin satışını və əldə edilən gəlirlərin leqallaşdırılmasını təmin etmək. Istehsalat təlimi və təcrübəsi zamanı hazırlanmış məhsulların sərgisini təşkil etmək
- 5. Ənənəvi olaraq Tour d " AZERBAYDJAN beynəlxalq yarışında personal xidmətləri Mərkəzimizə həvalə edilir ki,təşkil edilmiş xidmətlə bağlı olaraq müəssisəmiz əlavə gəlir əldə edir ki, eləcədə xidmətin öhdəsindən yüksək səviyyədə gəldiyimiz üçün bununla bağlı yarışmanın təşkilatçıları tərəfindən təşəkkür məktubu almışıq. Hesab edirik ki, bu tipli yarışmalarda iştirakımız davamlı olmalıdır. Çünki bu iştirak bizə əlavə gəlirlə yanaşı yaxşı imic qazandırmış olur.
- 5. Qanunvericilikdə nəzərdə tutulmuş halları diqqətdə saxlamaqla və riayət etməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq.

Məzunların işlə təminatı

- 2016-2017-ci tədris ili üçün şagird buraxılışı 181 nəfər olmuşdur.

Məzunların 48 nəfəri məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə getmiş, 86 nəfər ixtisası üzrə işlə təmin edilmiş, 8 məzun təhsilini orta ixtisas təhsili müəssələrində, 2 məzunumuz isə ali təhsil müəssələrində davam etdirmək hüququ qazanmışdır. Müqayisə üçün deyə bilərik ki, Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilmiş layihə üzrə hazırlanmış baza əsasında mərkəzi bitirmiş məzunların işlə təminatı 75% keçir ki, bu da layihənin uğurundan xəbər verir.

# Mərkəzin ümumi fəaliyyəti barədə görüntülər










METODİKİ GUŞƏ


İSMAYILLI
PEŞƏTƏDRİS
MƏRKƏZİ
AZERBAIJAN





# Təşəkkür edirəm